UOT: 327
DOI:https://doi.org/10.30546/3006-0346.2025.2.86.207

# ABŞ-IN RUSİYA-UKRAYNA MÜHARİBƏSİNDƏKİ MÖVQEYİNİN DƏYİŞMƏSİ VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universiteti,*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*
*E-mail: babashlisanubar@yahoo.com*

Rusiya-Ukrayna müharibəsi davam edərkən böyük dövlətlərin bu müharibədə mövqeyi və rolu, müharibənin digər regionlara və ümumiyyətlə, beynəlxalq münasibətlərə təsiri müzakirə olunmaqdadır. ABŞ-da prezident seçikiləri ərəfəsində hazırkı prezident Donald Tramp Rusiya-Ukrayna müharibəsinə münasibətdə bu müharibənin tezliklə başa çatdırlımasının zəruriliyi barəsində danışırdı. Prezident seçkilərində qələbəsindən bir qədər sonra Donald Tramp Rusiya-Ukrayna müharibəsinin başa çatmasının zəruriliyi haqqında danışıb, "Rusiya və Ukrayna üzərində çox daha çox çalışacağıq. Rusiya ilə Ukrayna arasında müharibə bitməlidir" deyib.

Prezident Donald Tramp fəaliyyətə başladıqdan qısa müddət sonra Rusiya ilə münasibətləri bərpa etmək istiqamətində də fəaliyyət göstərməyə başlayıb. ABŞ və Rusiya dövlət başçılarının telefon danışığı bu istiqamətdə atılmış bir addım idi. ABŞ prezidenti Donald Tramp və Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığından sonra iki ölkənin nümayəndə heyətləri Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda bir araya gəliblər. Rusiya nümayəndə heyətinə xarici işlər naziri Sergey Lavrov, Kremlin xarici siyasət üzrə müşaviri Yuri Uşakov və Rusiyanın Birbaşa İnvestisiya Fondunun prezidenti Kiril Dmitriyev, ABŞ nümayəndə heyətinə isə xarici işlər naziri Marko Rubio, Ağ Evin milli təhlükəsizlik üzrə müşaviri Mayk Vals və Yaxın Şərq üzrə xüsusi nümayəndə Stiv Vitkoff iştirak ediblər. Ər-Riyaddakı görüş Rusiya prezidenti Vladimir Putinin təxminən üç il əvvəl Ukraynaya genişmiqyaslı işğalına başlamasından sonra iki ölkənin yüksək vəzifəli rəsmiləri arasında ilk üzbəüz görüş idi.

Görüş zamanı bir sıra mühüm qərarlar qəbul olunub. Tərəflər Rusiya-Amerika münasibətlərində problemli məqamların aradan qaldırılmasına yönəlmiş məsləhətləşmə mexanizminin yaradılması barədə razılığa gəliblər. Ukraynada münaqişənin bütün tərəflər üçün məqbul olan davamlı həllinə nail olmaq və ilkin mərhələdə danışıqlar prosesinə başlamaq üçün yüksək səviyyəli nümayəndələrin təyin edilməsi qərara alınıb. Qarşılıqlı geosiyasi maraqlara, eləcə də münaqişənin uğurla həlli nəticəsində yaranacaq iqtisadi və investisiya imkanlarına uyğun hərəkət etmək məqsədəuyğun hesab edilib. Nəhayət, Ukraynada sülh prosesinin vaxtında və səmərəli şəkildə irəliləyişini təmin etmək üçün hər iki ölkənin komissiyaları tərəfindən hazırlanmış sülh təkliflərinin dövlət başçıları Vladimir Putin və Donald Trampa təqdim edilməsi barədə razılıq əldə olunub. Rusiyanın Ər-Riyad görüşündə gündəmə gətirdiyi məsələlərdən biri də sülh danışıqları ilə paralel olaraq iqtisadi sanksiyaların ləğvi və dondurulmuş Rusiya aktivlərinin sərbəst buraxılması olub. İlk iclasda belə bir tələbin səsləndirilməsi Rusiyanın bu müharibəyə görə iqtisadi çətinliklərlə üzləşdiyini göstərir [5].

Qeyd etmək lazımdır ki, Ər-Riyaddakı danışıqlarda Ukrayna ilə bağlı konkret təkliflər yoxdur. ABŞ və Rusiyanın sülh planı atəşkəs, Ukraynada seçkilər və daha sonra yekun razılaşmanı əhatə edən üç fazalı prosesi əks etdirir. Rusiyanın Ukraynada seçkilərin keçirilməsini istəməsinin əsas səbəblərindən biri Ukrayna prezidenti Volodimir Zelenskiyə onun legitimliyini şübhə altına alaraq təzyiq göstərməkdir [5]. Ər-Riyaddakı danışıqlar sübut edir ki, ABŞ prezident Donald Trampın rəhbərliyi altında Ukraynada hərbi əməliyyatları davam etdirmək marağında deyil. Rusiya üçün isə belə bir sülh NATO-nun məğlubiyyətini ifadə edir. Sözsüz ki, Rusiya üçün Kiyevin ərazisinin 20 faizinə nəzarəti ələ keçirməsini nəzərdə tutan razılaşma məqbul görünür. Rusiyanı razı salmağın əsas yolu onlara qələbə hissi verməkdir ki, bu da sülhü Rusiya üçün məqbul edəcəkdir. Çünki Rusiya əldə etdiyi sülhü öz xalqına qələbə kimi əks etdirə biləcəkdir. Əgər sülh əldə olunarsa, dünyanın əksər hissəsi Rusiyanı qalib kimi qəbul edəcəkdir [5].

ABŞ və Rusiya rəsmilərinin görüşü barəsində Ukrayna prezidenti Volodimir Zelenski bazar ertəsi bildirib ki, Ukrayna onun iştirakı olmadan bağlanan heç bir sülh sazişini tanımayacaqdır. “Bizim iştirakımız olmadan qəbul edilən heç bir razılaşmanı tanıya bilmərik” deyən prezident Volodimir Zelenski Ər-Riyadda baş tutan danışıqlar barəsində Ukraynaya məlumat verilmədiyini bildirib.

Ər-Riyad görüşü təkcə Ukraynanın deyil, Avropa dövlətlərinin də narahatlığına səbəb olmuşdur. Fransa prezidenti Emmanuel Makron, Avropanın iştirakı olmadan planlaşdırılan danışıqlara cavab olaraq 19 fevral 2025-ci il tarixində Parisdə Avropa liderləri ilə təcili iclas keçirib. Görüşdən sonra liderlər Ukraynaya davamlı dəstəyi vəd etdilər, lakin sülhməramlıların cəbhəyə göndərilməsi məsələsi də daxil olmaqla, hər hansı konkret təhlükəsizlik zəmanəti təklif etməkdən çəkiniblər. Avropa liderləri Paris görüşündə vahid Avropa strategiyasının zəruriliyindən başqa heç bir konkret addım ata bilməyiblər.

ABŞ prezidenti Donald Tramp və Ukrayna prezidenti Volodimir Zelenski Oval kabinetdə baş tutmuş görüş Rusiya-Ukrayna müharibəsi, ABŞ-Ukrayna münasibətlərinin gələcəyi və Avropada təhlükəsizliyə əhəmiyyətli təsir göstərib. Ukraynada sülhün bərqərar olması, tərəfdaşlığın dərinləşdirilməsi və digər mühüm aspektlər üzrə müzakirələr də olduqca gərgin keçib. Dövlət başçılarının gündəmindəki ən mühüm məsələlər Ukrayna ilə ABŞ arasında müzakirə edilən mineral saziş və Rusiya ilə müharibə olub. Ukrayna prezidenti Volodimir Zelenski bu müqaviləyə təhlükəsizlik zəmanətlərinin daxil edilməsini tələb edib. Ukrayna prezidenti Volodimir Zelenskinin Rusiya prezidenti Vladimir Putinlə sülh danışıqlarında "heç bir güzəştə gedilməməlidir" sözləri və atəşkəs razılaşmasına təhlükəsizlik zəmanətinin verilməsi istəyi ABŞ prezidentini qəzəbləndirib. ABŞ prezidenti Donald Trampın Ukrayna prezidenti Volodimir Zelenskini tənqid edərək "ölkəniz (Ukrayna) böyük bəla içindədir" deyərək onu müharibəni uzatmaqda təqsirləndirib [2]. Dövlət başçıları arasında mübahisənin baş verməsi qarşıya qoyulan məqsədlərə çatmağa imkan verməyib. ABŞ prezidenti Donald Trampın Ukrayna prezidenti Volodimir Zelenskini beynəlxalq ictimaiyyət qarşısında tənqid etməsi Ukraynanı atəşkəsin imzalanmasına razılaşdırmaq məqsədi daşıyırdı.

ABŞ və Avropa münasibətlərində son illərdə müşahidə edilən ən mühüm qırılmalardan biri kimi görülən Donald Tramp-Volodimir Zelenski debatı Ukraynanın gələcəyi ilə yanaşı, Avropanın təhlükəsizliyi ilə bağlı sualları da gündəmə gətirib. Bu kimi suallar, Avropada təhlükəsizlik və davamlı sülhün təmin edilməsində ABŞ-nin iştirakı və dəstəyi kimi məsələlər London Zirvə görüşündə müzakirə edilib. Böyük Britaniya Xarici İşlər Nazirliyinin tarixi Lancaster House-da keçirilən və Ukraynada davamlı sülh və Avropa təhlükəsizliyi mövzusuna həsr olunmuş sammitdə Ukrayna, Fransa, Almaniya, Danimarka, İtaliya, Hollandiya, Norveç, Polşa, İspaniya, Türkiyə, Finlandiya, İsveç, Çexiya Respublikası və Rumıniya prezidenti iştirak ediblər. İclasda ABŞ-nin Ukraynaya dəstəyi və onun ölkəyə təhlükəsizlik zəmanətlərinin verilməsində oynayacağı rol müzakirə olunub. İştirakçılar həmçinin Rusiyanın gələcək hücumlarına qarşı çəkindirici rol oynayacaq tədbirləri də müzakirə ediblər. Zirvəyə İngiltərə, Fransa və digər 17 ölkə arasında dörd əsas məsələ üzrə razılıq əldə olunub: Ukraynaya hərbi yardımı davam etdirilməsi, Kiyev sülh danışıqlarında masa arxasında olması, Avropa liderlərinin Rusiyanın gələcək hücumunun qarşısını almağı hədəfi, Ukraynanı müdafiə etmək və sülhü təmin etmək üçün "könüllülər koalisiyasının" yaradılması [1].

London sammiti belə qənaətə gəlməyə imkan verir ki, İngiltərə və Fransa digər ölkələrin dəstəyi ilə məsuliyyətin böyük hissəsinin Avropanın üzərinə düşəcəyi, lakin ABŞ-nin dəstəyinin mühüm element olacağı planı Trampa təqdim etmək niyyətində olub. Avropa rəsmiləri Ukrayna, Avropa və ABŞ-nin ümumi mövqeyini əks etdirən sənəd hazırlamağı planlaşdırırlar və bu sənəddən Rusiya ilə danışıqlar üçün əsas götürülə bilər. Avropa danışıqlar masası arxasında oturmaq cəhdində, Ukraynaya hərbi yardımın və təhlükəsizlik zəmanətlərinin davam etdirilməsində israrlı olduğunu nümayiş etdirib. Avropa dövlətlərinin əsas məqsədlərindən biri prezident Donald Trampa ABŞ-nin dəstəyinin münaqişənin həllində əhəmiyyətli olduğunu sübut etmək olub.

Avropa dövlətləri yenidən ABŞ-nin dəstəyini qazanmaq üçün cəhd göstərərkən 3 mart 2024-cü il tarixində ABŞ prezident Donald Trampın Ukraynaya hərbi yardımı dayandırmaq barədə qərar verib. Qərar döyüş sursatı, nəqliyyat vasitələri və digər avadanlıqların, o cümlədən keçmiş prezident Cozef Baydenin prezident olduğu zaman razılaşdırılmış göndərişlərə aid olub. ABŞ-nin Ukraynaya hərbi yardımı dayandırmaq qərarının Ukraynanın hərbi təchizat zəncirinə böyük təsir göstərəcəyi güman edilib. Dekabr ayında, vəzifədən getməzdən bir müddət əvvəl Cozef Bayden Ukraynaya təhlükəsizlik və büdcə yardımı üçün əlavə 5,9 milyard dollar elan etmişdi. Ukrayna ABŞ tərəfindən Rusiyanın hava hücumlarına qarşı qabaqcıl hava hücumundan müdafiə sistemləri, raket və toplar, tank və zirehli maşınlar ilə təmin edilib. Qeyd etmək lazımdır ki, prezident Do-

nald Tramp yanvarın 20-də vəzifəyə gəldikdən sonra ABŞ Müdafiə Nazirliyi əvvəllər təsdiq edilmiş döyüş sursatlarını göndərməyə davam edib [4].

ABŞ tərəfindən hərbi yardımların dayandırılması qərarından sonra ABŞ-nin Ukrayna ilə kəşfiyyat mübadiləsini dayandırdığı da məlum olub. ABŞ-nin Ukraynaya hərbi yardımlarını dayandırdığını bəyan etdikdən sonra, kəşfiyyat sahəsində də əməkdaşlığı kəsdiyini bildirməsi ABŞ prezidenti Donald Trampın Ukrayna prezidenti Volodimir Zelenskini Rusiya ilə sülh danışıqlarına razılaşdırmaq məqsədi daşıyıb [3].

Digər tərəfdən qeyd etmək lazımdır ki, ABŞ-nin Ukraynaya hərbi yardımı kəsməsi və kəşfiyyat məlumatları mübadiləsinin dayandırılması NATO daxilindəki etimad və alyansın dövlətləri arasındakı münasibətlərə də əhəmiyyətli təsir göstərib. ABŞ-nin Ukrayna ilə kəşfiyyat məlumatlarının mübadiləsini kəsmək qərarı NATO ölkələri arasında kəşfiyyat məlumatlarının bölüşdürülməsi ilə bağlı etimadsızlığı gücləndirib. Alyansın ənənəvi Qərb üzvləri ilə Slovakiya və Macarıstan kimi keçmiş kommunist –Şərqi Avropadan olan yeni üzvlər arasında uzun müddətdir gərginlik var. Bu vəziyyət Rusiyanın Ukraynaya hücumundan sonra daha da pisləşib.

ABŞ və Ukrayna rəsmilərinin Ciddədə baş tutmuş görüşü əsasında qeyd edə bilərik ki, ABŞ tərəfindən Ukraynaya hərbi yardım və kəşfiyyat məlumatları mübadiləsini dayandırılması kimi cəzalandırma tədbirləri nəticə verib. ABŞ və Ukrayna rəsmiləri Ciddə danışıqlarından sonra birgə bəyanatla çıxış ediblər. Birgə bəyanatda Rusiyanın yanaşmasının nəticənin müəyyən edilməsində əhəmiyyətli olacağı qeyd edilib və əlavə edilib ki, "ABŞ Rusiya ilə əlaqə saxlayacaq". Bəyanatda Ukrayna nümayəndə heyətinin "sülh prosesinə avropalı tərəfdaşların da daxil edilməsi" məsələsi də yer alıb, lakin ABŞ-nin bu məsələdəki mövqeyi öz əksini tapmayıb.

Beləliklə, ABŞ-nin hərbi yardımlarını və kəşfiyyat məlumatları mübadiləsini müvəqqəti dayandırılması nəticəsində atəşkəs və mineral saziş barəsində Ukraynanın razılığını alıb. Lakin otuz günlük atəşkəs təklifinə Rusiya tərəfindən hələ də rəsmi cavab gəlməyib. Rusiyanın bu günə qədər davam edən hərbi əməliyyatlarda üstünlük əldə etməsi onun mövqeyini daha həlledici və əhəmiyyətli edib. Mövcud vəziyyət əsasında qeyd edə bilərik ki, Rusiya hazırda atəşkəs məsələsinə müsbət baxmır. Bu səbəbdən Rusiya-Ukrayna müharibəsinin gələcəyi və müvəqqəti atəşkəs məsələsi hələ də qeyri-müəyyəndir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *'A crossroads in history': Europe seeks to take control of Ukraine negotiations at pivotal London summit, 2 march 2025, https://edition.cnn.com/2025/03/02/europe/ukraine-russia-zelensky-starmer-summit-intl/index.html*
2. *Trump accuses Zelensky of 'gambling with World War Three', 1 march 2025, https://www.bbc.com/news/articles/c9dejydynngo*
3. *US pauses intelligence sharing with Ukraine, 6 march 2025, https://www.bbc.com/news/articles/cwygxvvrd8do*
4. *US suspends all military aid to Ukraine in wake of Trump-Zelenskyy row, 4 march 2025, https://www.theguardian.com/world/2025/mar/04/us-military-aid-ukraine-pause-trump-zelenskyy-updates*
5. *US and Russia agree to explore mutual opportunities of end to Ukraine war, 18 february 2025, https://www.theguardian.com/world/2025/feb/18/us-russia-ukraine-talks-riyadh-saudi-arabia*


## SUMMARY


One of the main problems in modern international relations is the Russia-Ukraine war. This war, which has been ongoing since 2022, is of great importance not only for the region, but also for all the countries of the world. The outbreak of the Russia-Ukraine war has had a significant impact on the structure of the international system. Even if Russia is the only major power directly involved in the war, other major powers have become actors in the conflict at one level or another. The USA, which has been pursuing an active foreign policy since the beginning of the occupation, has undergone fundamental changes as a result of the re-election of Donald Trump as president. Before the presidential elections, the current president, Donald Trump, promised to work towards ending the Russia-Ukraine war. Since Donald Trump's victory and the return of the Republicans to power, one of the most anticipated steps was related to the Russia-Ukraine war. The tensions in relations between the United States and Ukraine, the start of negotiations between US officials and Russian officials, and finally the cessation of US military and intelligence support to Ukraine were expected, and the goals set were achieved.

**Keywords:** *USA, Russia, Ukraine, air defense systems, intelligence exchange, security.*

**РЕЗЮМЕ**

Одной из главных проблем современных международных отношений является российско-украинская война. Эта война, которая продолжается с 2022 года, имеет большое значение не только для региона, но и для всех стран мира. Начало российско-украинской войны оказало существенное влияние на структуру международной системы. Даже если Россия является единственной крупной державой, непосредственно вовлеченной в войну, другие крупные державы стали акторами конфликта на том или ином уровне. Соединенные Штаты, проводящие активную внешнюю политику с начала оккупации, претерпели кардинальные изменения в результате переизбрания Дональда Трампа на пост президента и прихода к власти республиканцев. Перед президентскими выборами действующий президент Дональд Трамп обещал работать над прекращением российско-украинской войны. После победы Дональда Трампа и возвращения республиканцев к власти один из самых ожидаемых шагов был связан с российско-украинской войной. Напряженность в отношениях между США и Украиной, начало переговоров между официальными лицами США и России и, наконец, прекращение военной и разведывательной поддержки США Украины были ожидаемы, и поставленные цели были достигнуты.

**Ключевые слова:** *США, Россия, Украина, системы ПВО, обмен разведданными, безопасность.*

**XÜLASƏ**

Müasir beynəlxalq münasibətlərdə aktuallıq kəsb edən problemlərdən biri də Rusiya-Ukrayna müharibəsidir. 2022-ci ildən etibarən davam edən bu müharibə nəinki region, bütün dünya dövlətləri üçün böyük əhəmiyyət kəsb edir. Rusiya-Ukrayna müharibəsinin baş verməsi beynəlxalq sistemin strukturuna əhəmiyyətli təsir göstərib. Böyük dövlətlərdən yalnız Rusiya müharibənin birbaşa iştirakçısı olsa belə, digər böyük dövlətlər bu və ya digər səviyyədə münaqişənin aktorlarına çevriliblər. İşğalın başlamasından bəri fəal xarici siyasət reallaşdıran ABŞ-nin Donald Trampın yenidən prezident seçilməsi, Respublikaçıların hakimiyyətə gəlməsi nəticəsində əsaslı dəyişikliyə məruz qalıb. Prezident seçkilərindən əvvəl hazırkı prezident Donald Tramp Rusiya-Ukrayna müharibəsinin başa çatdırılması istiqamətində fəaliyyət göstərəcəyini vədd edirdi. Donald Trampın qələbəsi və Respublikaçıların hakimiyyətə qayıdışından etibarən ən çox gözlənilən addımlardan biri də Rusiya-Ukrayna müharibəsi ilə bağlı idi. ABŞ və Ukrayna arasındakı münasibətlərdə baş verən gərginliklər, ABŞ rəsmilərinin Rusiya rəsmiləri ilə danışıqlara başlaması, nəhayət ABŞ-nin Ukraynaya hərbi və kəşfiyyat sahəsində dəstəyini dayandırması gözlənilən olub və qarşıya qoyulan məqsədlərə çatmışdır.

**Açar sözlər:** *ABŞ, Rusiya, Ukrayna, hava hücumundan müdafiə sistemləri, kəşfiyyat mübadiləsi, təhlükəsizlik.*